# Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Satınalma komissiyasının bildirişi

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2024-cü il üçün xərclər smetasının 222441 – “Əsas fondlara xidmət haqqı xərcləri” yarımmaddəsi üzrə Lot 1 - Dövlət Statistika Komitəsinin inzibati binasındakı havalandırma və mərkəzləşdirilmiş kondisioner sistemlərinə, sənaye tipli kondisionerlərə qulluqla bağlı xidmətlərin satın alınması ilə bağlı 18.03.2024-cü il tarixində elan edilmiş kotirovka sorğusuna qatılan Təchizatçılardan birinin uyğunluq sənədlərinin təqdim edilməsi müddətinin 5 iş günü artırılması ilə bağlı sorğusuna əsasən “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 27.4-cü madəsinə uyğun olaraq sözügedən kotirovka sorğusu üzrə təkliflərin təqdim edilməsi müddəti 5 (beş) iş günü uzadılmışdır. Bununla əlaqədar olaraq şərtlər toplusuna dair izahat üçün son müddət 09.04.2024-cü il saat 10:00-dək, şərtlər toplusuna dəyişiklik üçün son müddət 16.04.2024-cü il saat 10:00-dək, təklifin qüvvədə olma müddəti 11.06.2024 tarixinədək müəyyən edilmişdir. Təkliflərin təqdim edilməsinin son müddəti və təkliflərin açılmasının müddəti 19.04.2024-cü il saat 10:00-dır.

Satınalma komissiyası